# ELMİ HƏYAT

***(elmi konfranslar, sessiyalar, beynəlxalq əlaqələr; təqdimatlar, tədbirlər, təltiflər)***

## "Nizami Gəncəvi – Azərbaycanın sönməz günəşi",

*onlayn beynəlxalq konfrans*

(Gəncə ş.)

30 avqust 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, fil. ü.f.d., dos. Əzizağa Nəcəfzadə Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü və Gəncə Dövlət Mədəniyyət Qoruğu Nizami Gəncəvi Kompleksinin birgə təşkilatçılığı ilə keçirilən "Nizami Gəncəvi – Azərbaycanın sönməz günəşi" mövzusunda beynəlxalq onlayn konfransa fəxri qonaq qismində qatılıb. "Nizami ili" çərçivəsində təşkil olunan beynəlxalq tədbirdə dosent Əzizağa Nəcəfzadə ***"Nizami Gəncəvinin "Leyli və Məcnun" məsnəvisinin ilkin qaynaqları"*** mövzusunda məruzə edib.

***

## Əlyazmalar İnstitutunun alimləri Gəncədə nizamişünaslarla keçirilən görüşdə

(Gəncə ş.)

20 sentyabr 2021-ci il tarixində Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun "Nizami Məqbərə Kompleksi" filialı və Gəncə Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Nizami-şünaslarla şəhər ictimaiyyətinin görüşü keçirilib. Tədbirdə Əlyazmalar İnstitutunun elmi katibi, fil. ü.f.d., dos. Əzizağa Nəcəfzadə ***"Nizami Gəncəvi əsərlərinin Bakı əlyazmaları barədə"*** məruzəsi ilə çıxış edərək institutda qorunan Nizami əlyazmalarının nüsxələrinin özəllikləri barədə məlumat verib, eyni zamanda 2021-ci ildə Əlyazmalar İnstitutunda Nizami Gəncəvinin həyat və yaradıcılığının tədqiqi ilə bağlı nəşr olunmuş kitablar haqqında danışıb. Həmin institutun aparıcı elmi işçisi, fil. ü.f.d., dos. Aynur Nəcəfova isə ***"Nizami əsərlərinə bəstələnən romansların not yazılarının avtoqraf nüsxələri haqqında"*** məruzə ilə çıxış edərək tədbir iştirakçılarını Əlyazmalar İnstitutunun Şəxsi arxiv fondunda qorunan Üzeyir Hacıbəyov və AMEA Hüseyn Cavidin Ev Muzeyində mühafizə olunan Ərtoğrol Cavidin Nizami əsərlərinə bəstələdiyi romansların not yazılarının əlyazma nüsxələri haqqında məlumat verib.

**“Vətən məğrur, mən məğrur”,**
*tədbir*

21 sentyabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda “Vətən məğrur, mən məğrur” devizi altında hərbi-vətənpərvərlik ruhunda tədbir keçirilib. Tədbiri Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli açıb. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr tarixinin ölkədə “Anım günü” kimi təsis edilməsi haqqında Sərəncamı oxunduqdan sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Akademik Teymur Kərimli öz çıxışında 44 günlük Vətən müharibəsində əhalisinin şücaəti ilə fərqlənən Tərtər, Gəncə, Tovuz kimi şəhərlərə “Qərhəman şəhər” adının verilməsi təklifini irəli sürüb. Anım mərasiminin qonaqları I Qarabağ Müharibəsi uğrunda gedən döyüşlərdə iştirak edən, ehtiyatda olan polkovnik-leytenant Hacı Məmmədov və Vətən müharibəsi iştirakçısı, ehtiyyatda olan baş leytenant Bakı şəhəri, Xətai rayonu 221 saylı tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Bədəl Hüseynov çıxışlarında 44 günlük Vətən müharibəsi dövründə iştirak edənlərin şücaətindən bəhs edərək ordumuzun döyüş meydanında əldə etdikləri nailiyyətlərindən danışıb. Tədbirdə həmçinin Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, fil. e.d. Paşa Kərimov, İnstitutun elmi katibi, fil. ü.f.d., dos. Əzizağa Nəcəfzadə, Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fil. ü.f.d. Aytən Quliyeva çıxış ediblər.

***

**“Nizami və Dante: mədəniyyətlərdə ortaq və fərqli məqamlar”,**
*beynəlxalq elmi konfrans*

7 oktyabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli, həmin institutun elmi katibi, fil. ü.f.d., dos. Əzizağa Nəcəfzadə və Türkdilli əlyazmaların tədqiqi şöbəsinin baş elmi işçisi, fil. e.d. Aygül Hacıyeva Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycandakı Səfirliyinin mənzil-qərargahında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik və Dante Aligyerinin 700 illik yubiley tədbirləri çərçivəsində təşkil olunan “Nizami və Dante: mədəniyyətlərdə ortaq və fərqli məqamlar” adlı beynəlxalq elmi konfransın açılış mərasimində iştirak ediblər. Konfransda akademik Teymur Kərimli *“Konfutsi (e.ə.VI) – Firdovsi (XI) – Nizami (XII) – Mevlana (XIII) – Dante (XIV) – Şekspir (XVII) – Puşkin (XVIII) – Höte (XIX) və ya dünya ədəbiyyatının “İpək Yolundakı səkkiz duraq...”*, fil. ü.f.d., dos. Əzizağa Nəcəfzadə *“Nizami Gəncəvi və Dante Aligreyi yaradıcılığında kəsişən xətlər”* mövzusunda məruzələrlə çıxış ediblər.

**“Qızlar məktəbi”nin 120 illik yubileyinə həsr olunmuş tədbir**

11 oktyabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü, Təhsil Nazirliyi və AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun birgə təşkilatçılığı ilə “Qızlar məktəbi” nin 120 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbir çərçivəsində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yaradılmış Qızlar gimnaziyası guşəsinin açılış mərasimi olub. Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Təhsil naziri Emin Əmrullayev, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli açılışın rəmzi olan qırmızı lenti kəsdikdən sonra mötəbər qonaqlara gimnaziyanın tarixi, təsisi, fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib. Daha sonra yubiley toplantısı keçirilib. Toplantını giriş nitqi ilə açan komitə sədri Bahar Muradova qızların təhsilində Hacı Zeynalabdin Tağıyevin əvəzolunmaz rolunu qeyd edərək, bu məktəbin açılışının nə qədər vacib və önəmli olduğunu bildirib. O, qadınların həm təhsil, həm də idarəetmə sahəsində necə vacib və əhəmiyyətli rola malik olduqlarını xüsusilə vurğulayıb və qeyd edib ki, hazırda da Azərbaycanda qızların təhsilə cəlb olunması ilə bağlı vacib addımlar atılır. Təhsil naziri Emin Əmrullayev çıxışında bildirib ki, 1901-ci il oktyabrın 7-də Bakıda Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maliyyə dəstəyi ilə müsəlman Şərqində yaradılan ilk dünyəvi qızlar məktəbi Azərbaycan qadınlarının həyatında, onların maariflənməsində böyük rol oynayıb. Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli çıxışında “Qızlar məktəbi” nin tarixindən, bu məktəbin ərsəyə gəlməsində 3 şəxsin: Bakı neft milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev, Azərbaycanın ilk maarifçi ziyalısı və jurnalist Həsən bəy Zərdabi, gənc polyak mühəndis İosif Vikentiyeviç Qoslavskinin əməyindən söhbət açıb, bildirib ki, müasir dövrdə də qızların təhsili və hüquqlarının qorunması cəmiyyətin əsas vəzifələrindən biri olmalıdır. Daha sonra AMEA Milli Azərbaycan Tarixi Muzeyinin icraçı direktoru, tar. ü. f. d., dos. Fərhad Cabbarov, Bakı Dövlət Universitetinin professoru, tar. e. d. Lətifə Əliyeva və b. çıxış ediblər.

***

**“Rusiya və Azərbaycanın mədəni ənənələrinin humanist ideyaları və müasir çağırışlar”,**
*beynəlxalq tədbir*
(Rusiya Federasiyası, Moskva ş.)

23 oktyabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və institutun elmi katibi, fil. ü.f.d., dos. Əzizağa Nəcəf-zadə Moskva şəhərində Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyası (EIDA) və “Literaturnaya qazeta” Nəşriyyat Evinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş “Rusiya və Azərbaycanın mədəni ənənələrinin humanist ideyaları və müasir çağırışlar” (“Гуманистические идеи культурных традиций

России и Азербайджана и вызовы современности") adlı beynəlxalq tədbirdə məruzə ediblər. Akademik Teymur Kərimli *"Nizami Gəncəvi demokratizmi klassik dünya ədəbiyyatında keyfiyyətcə yeni fenomen kimi" ("Демократизм Низами Гянджеви как качественно новое явление в классической мировой литературе")* adlı məruzə ilə çıxış edərək Nizami Gəncəvinin əsərlərinin yenilikçi və təkrarolunmaz tərzi ilə seçildiyidən, onun demokratikliyinin sələflərinə nisbətən daha sistematik olduğundan bəhs edib, dahi şairin əsərlərindəki bədii yaradıcılıq metodunun zamanında oxucu üçün qeyri-adi və psixoloji cəhətdən keyfiyyətcə yeni olduğunu əsaslandırıb. Fil. ü.f.d., dos. Əzizağa Nəcəfzadə *"Şərqin parlaq günəşi, yaxud böyük humanist Nizami Gəncəvi" ("Сияющее солнце Востока или великий гуманист Низами Гянджеви")* adlı məruzəsində şairin XII əsr Şərq intibahının görkəmli nümayəndəsi, ensiklopedik intellektə malik şəxsiyyət olduğunu qeyd edib, dahi sənətkarın "Xəmsə" sini humanizm və insanlığın ensiklopediyası adlandırıb. Bildirib ki, Nizami nəinki Azərbaycanın və bütün müsəlman Şərqinin, eyni zamanda bütün dünyanın nadir zəka sahiblərindən biridir, onun sülh və tərəqqiyə çağıran qiymətli mirası isə bəşəriyyət üçün zəngin həyat məktəbidir.

***

**Qars müqaviləsinin 100-cü ildönümü,**
*onlayn panel*

27 oktyabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun icraçı direktoru, fil. e.d. Paşa Kərimov "BİLGESAM" Strateji Araşdırmalar Mərkəzinin Qars müqavi-ləsinin 100-cü ildönümünə həsr etdiyi növbəti onlayn panelə qatılıb. Alim *"Qars müqavilə-sindən sonra Azərbaycan – Türkiyə ədəbi əlaqələri"* mövzusunda məruzə edərək bu ölkələrin bir-birilə daha da yaxınlaşmasında həmin müqavilənin böyük əhəmiyyətə malik olduğunu söyləyib. O qeyd edib ki, XX əsrdən başlayaraq azərbaycanlıların dünya ədəbiyyatı ilə tanış olmasında məhz türk ədəbiyyatının, türkiyədən gələn kitabların böyük rolu olub. Paşa Kərimov həmçinin I Dünya müharibəsi zamanı Türkiyə və Azərbaycan əhalisinin qardaşlaşmasına səbəb olan amillərdən bəhs edib, həmçinin Türkiyəli əsirlərə azərbaycanlı ziyalıların qayğı göstərməsi məsələsinə toxunarkən Nəriman Nərimanovun fəaliyyətini xüsusilə vurğulayıb.

***

**"Fərabidən Nizamiyə ruhi-mənəvi körpü",**
*beynəlxalq konfrans*
(Qazaxıstan Respublikası, Almatı ş.)

2 noyabr 2021-ci il tarixində Qazaxıstan Respublikasının Almatı şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Fərabidən Nizamiyə ruhi-mənəvi körpü" mövzusunda Beynəlxalq konfrans keçirilib. İslam Əməkdaşlığı Təşkilatının Gənclər Forumunun Avrasiya Regional Mərkəzi tərəfindən təşkil olunan konfrans Əl-Fərabi adına Qazax Milli Universitetində baş tutub. Konfransda akademik Teymur Kərimli ***"İkinci müəllimin dahi şagirdi (Fərabi və Nizami)"***, dosent Əzizağa Nəcəfov isə ***"Türk dünyasının böyük humanizm carçıları: Fərabi və Nizami"*** mövzusunda məruzə etmişlər.

**«Ruhi-mənəvi körpülər: Nizamidən Nəvaiyə»,**
*beynəlxalq elmi-praktiki konfrans*
(Özbəkistan Respublikası, Daşkənd ş.)

5 noyabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və həmin institutun elmi katibi, fil. ü.f.d., dos. Əzizağa Nəcəfzadə Daşkənd Dövlət Şərqşünaslıq Universitetində təşkil olunan "Ruhi-mənəvi körpülər: Nizamidən Nəvaiyə" mövzusunda beynəlxalq elmi-praktiki konfransda iştirak ediblər. Akademik Teymur Kərimli konfransın plenar iclasında *"Nizami demokratizmi dünya ədəbiyyatında keyfiyyətcə yeni hadisədir"* mövzusunda, dosent Əzizağa Nəcəfzadə isə bölmə iclasında *"Klassik İslam Şərqi ədəbiyyatında insanpərvərlik ənənəsi: Nizami və Nəvai yaradıcılığı kontekstində"* mövzusunda məruzə ediblər.

***

**"Nizami Gəncəvi irsi əlyazmalarda, miniatürlərdə və musiqidə",**
*elmi konfrans*

22 noyabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda *"Ni-zami Gəncəvi irsi əlyazmalarda, miniatürlərdə və musiqidə"* mövzusunda elmi konfrans keçirilib. Tədbir AMEA Hümanitar Elmlər Bölməsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Memarlıq və İncəsənət İnstitutu və Hüseyn Cavidin Ev Muzeyinin birgə təşkilatçılığı ilə baş tutub. Konfransın açılış mərasimində giriş nitqi ilə çıxış edən AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2021-ci ilin ölkəmizdə Nizami Gəncəvi ili elan etməsi ilə əlaqədar AMEA-da silsilə tədbirlərin keçirildiyini vurğulayıb. "Nizami Gəncəvi irsi əlyazmalarda, miniatürlərdə və musiqidə" mövzusunda elmi konfransın bu qəbil tədbirlərdən olduğunu ifadə edən alim AMEA tərəfindən 40-a yaxın nəşrin hazırlandığını, ilin sonunda daha bir kataloqun işıq üzü görəcəyini nəzərə çatdırıb. Sonra Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Nizamişünaslıq" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Nüşabə Araslı *"Nizami Gəncəvi haqqında söz"*, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli *"Nizami Gəncəvi irsi Əlyazmalar İnstitutunun xəzinəsində",* AMEA Hüseyn Cavidin Ev Muzeyinin baş direktoru, fil. e.d. Gülbəniz Babaxanlı *"Ərtoğrol Cavid və Nizami Gəncəvi irsi"*, AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq ü.e.d., professor Cəmilə Həsənzadə *"Nizami Gəncəvi irsi orta əsr miniatürlərində*" mövzularında məruzələrlə çıxış ediblər.

**"Qarabağın ədəbiyyat səhifələrində Məclisi-üns",**
*elmi-ədəbi konfrans*
(Bakı ş.)

7 dekabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Azər-baycan Respublikası Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı ilə "Qarabağın ədəbiyyat səhifələrində Məclisi-üns" adlı

elmi-ədəbi konfrans keçirilib. Tədbiri giriş nitqi ilə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli açıb. Konfransda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəyli, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun İlkin yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, fil. e.d. Mahirə Quliyeva, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi, fil. e.d., professor Raqub Kərimov, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, fil. e.d. Mərziyyə Nəcəfova, AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin X.Natəvan adına Qarabağ filialının elmi işçisi Rəhman Baxşəliyev, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin elmi katibi Cavid Əliyev məruzə ediblər. Məruzəçilər Qarabağın ədəbi-mədəni keçmişi, XIX əsr ədəbi məclisləri və muğam-sənət tarixi, Qarabağ atları, Qarabağ müharibəsi ədəbiyyatda, XX əsr kino sənətində Qarabağ mövzuları ətrafında çıxış edərək, qarabağşünaslığın yeni nailiyyətləri ilə konfrans iştirakçılarını tanış ediblər.

***

**“Heydər Əliyev Nizaminin liderlik təliminin örnəklərindən biri kimi”,**
*elmi sessiya*
(Bakı ş.)

9 dekabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Heydər Əliyevin vəfatının 18-ci ildönümünə həsr edilmiş “Heydər Əliyev Nizaminin liderlik təliminin örnəklərindən biri kimi” mövzusunda elmi sessiya keçirilib. Tədbir Ümummilli liderin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Elmi sessiyanı Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli açaraq Ulu öndərin bütün ömrünü Azərbaycanın tərəqqisinə, onun elmi potensialının yüksəlməsinə, maddi və mənəvi mədəniyyətinin inkişaf etdirilməsinə həsr etdiyini bildirib, dahi şəxsiyyətin Nizami Gəncəvi irsinin tədqiqi və təbliğində misilsiz xidmətlərindən bəhs edib. Alim Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına və mənəviyyatına qayğı və diqqət yetirən, himayə edən böyük şəxsiyyət olduğunu xüsusi vurğulayıb, Əlyazmalar İnstitutunun məhz onun qayğı və diqqəti sayəsində formalaşdığını qeyd edib. Elmi sessiyada institutun baş elmi işçisi, fil.e.d., professor Qaley Allahverdiyevin “Heydər Əliyev və Azərbaycanın neft strategiyası”, institutun baş elmi işçisi, tar. e.d. Tahirə Həsənzadənin “Heydər Əliyev və Azərbaycanın sərhəd təhlükəsizliyi strategiyası”, institutun aparıcı elmi işçisi, fil. ü.f.d., dosent İbrahim Quliyevin “Heydər Əliyevin multikulturalizm siyasəti” mövzusunda məruzələri dinlənilib. Sonra məruzələr ətrafında çıxışlar olub. İnstitutun icraçı direktoru, fil. e.d., dosent Paşa Kərimov və elmi katib, fil. ü.f.d., dosent Əzizağa Nəcəfov milli dövlətçilik tariximizdə Heydər Əliyevin Nizami irsinə, onun yaradıcılığına münasibəti ilə bağlı dəyərli fikirlərini bölüşüblər.

***

**Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş yekun ədəbi-bədii tədbir**

14 dekabr 2021-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, fil. ü.f.d., dosent Əzizağa Nəcəfzadə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran Regional Filialı və Kürdəmir rayon Təhsil Şöbəsinin birgə təşkil etdiyi Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş yekun ədəbi-bədii tədbirdə iştirak edib. Tofiq İsmayılov adına 1 saylı tam orta məktəbin akt zalında keçirilən ədəbi-bədii gecədə Ə.Nəcəfzadə ***"Nizaminin milli və ədəbi kimliyi"*** mövzusunda məruzə edib, nizamisevərləri maraqlandıran sualları cavablandırıb.

***

**Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın ikinci iclası**

6 avqust 2021-ci il tarixində Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın ikinci iclası keçirilib. İclasda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli də iştirak edib. İclasın sonunda Azərbaycan Respublikası və İraq Respublikası Hökumətləri arasında yuxarıda göstərilən sahələrdə əməkdaşlıq üzrə Birgə Komissiyanın ikinci iclasının Protokolu imzalanıb. Birgə Komissiyanın İraq Respublikası tərəfindən həmsədri, bu ölkənin Rabitə naziri Arkan Al-Şeybanin və Komissiyanın Azərbaycan Respublikası tərəfindən həmsədri, Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin imzaladığı protokolda hər iki ölkənin əlyazmalar fondunun yazılı abidələrin elektron surətlərinin qarşılıqlı mübadiləsi hesabına zənginləşdirilməsi də nəzərdə tutulub. Bu fəaliyyət çərçivəsində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə Bağdad Universitetinin Ərəb Elmi İrs Mərkəzi arasında ərəb müəllif və xəttatları tərəfindən ərəb dilində yazılmış yazılı abidələr ilə Azərbaycan müəlliflərinin və xəttatlarının Azərbaycan dilində yazılmış əlyazmalarının elektron surətlərinin qarşılıqlı mübadiləsi həyata keçiriləcək.

**SARBON UNİVERSİTETİNİN MÜTƏXƏSSİSİ ƏLYAZMALAR İNSTİTUTUNDA TƏDQİQAT APARIB**

Parisdə yerləşən III Yeni Sarbon Universitetinin Şərqşünaslıq şöbəsinin müdiri professor Oliver Bastın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimliyə yazılı müraciətinə əsasən, adıçəkilən təhsil ocağının əlyazmaşünas mütəxəssisi Odri Vörmiyar İnstitutda elmi tədqiqat işi aparıb. Xarici mütəxəssis Əssar Təbrizinin “Mehr və Müştəri” əsərinin Əlyazmalar İnstitutunda mühafizə olunan dörd nüsxəsini tədqiq edib. Qonaq Əlyazmalar İnstitutunun fondları, ekspozisiya zalları ilə də yaxından tanış olub.